DOI: 10.36719/2663-4619/62/151-154

**Sümeyra Hüseyin qızı Avcı**
Bakı Dövlət Universiteti
sumeyra.awci07@gmail.com

# KƏKƏLƏYƏN UŞAQLARIN NİTQ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *kəkələmə, nitq, şifahi və yazılı nitq, artikulyasiya, qıcolma*

## Speech features of stuttering children

**Summary**

To understand the nature of stuttering, it is important to clarify the speech characteristics of children who stutter. The level of development of language skills in stuttering children is almost the same as in normal-speaking children. They determine the reactions of individual characteristics to the influence of various situational factors. Research on the speech characteristics of stuttering children shows that they have difficulty using the means of communication in the communicative processes of speech, despite the richness of vocabulary and the ability to compose sentences. Stuttering is one of the most common speech disorders caused by convulsions in the muscles of the speech apparatus, and stuttering should be eliminated immediately when it occurs. Otherwise, it will get worse and worse over time and can do great damage to the child's mental development.

***Key words****: stuttering, speech, motor skills, oral and written speech, articulation, convulsions*

Nitq insan həyatında müstəsna rol oynayır. Bu çatışmazlıqlar uşaqlıq, xüsusilə də, məktəbəqədər yaş dövründə daha çox rast gəlinən, uşağın ailədə, yoldaşları və ətrafındakılarla ünsiyyətinə mənfi təsir edən ağır nitq pozulmalarından biridir. Kəkələmənin mahiyyətini anlamaq üçün kəkələyən uşaqların nitq xüsusiyyətlərinin aydınlaşdırılması çox vacibdir. Kəkələyən uşaqlarda şifahi və yazılı nitq xüsusiyyətlərinin öyrənilməsi üzrə aparılan çoxsaylı tədqiqatlar göstərir ki, onların əksəriyyətində dil vasitələrin inkişaf səviyyəsi normal danışan uşaqlarla demək olar ki, eynilik təşkil edir. Kəkələyən uşaqların fərdi xüsusiyyətləri müxtəlif situativ amillərə təsirə qarşı reaksiyaları müəyyənləşdirir. Kəkələyən uşağın fərdi şəxsiyyət xüsusiyyətləri öz əksini onun şifahi nitq, davranış və fəaliyyətində əks etdirir.

Məktəbəqədər yaş dövründə uşaqlar nitqin bir çox komponentlərinə yiyələnmiş olurlar. Çoxsaylı tədqiqatlar ağır nitq pozulması olan kəkələmənin başlanmasını məhz bu dövrə təsadüf etdiyini və onu məktəbəqədər yaşlı uşaqlarda birdən-birə təzahür edən kəkələməni simptomatik və ya "ikincili" kəkələmədən fərqli, müstəqil bir nitq pozulması hesab edirlər. (N.A.Vlasova, 1974; N.M.Asatiani, L.I.Belyako və İ.O.Kalaçeva və b., 1978). Bu dövrdə artikulyasiyaya əlavə olaraq, nitqin semantik və sintaktik tərəflərinə yiyələnmə nitqin inkişafını daha da sürətləndirmiş olur. Artıq dörd yaşında uşaqlarda nitqin əsas xüsusiyyətləri: səs, heca və frazaların tələffüzü, cümlələrin sintaktik cəhətdən qurulması və onlar arasında melodiklik, vurğu, ritm fasilə və intonasiya böyüklərdə olduğu kimi özünü göstərməyə başlayır. Nitqin sürətlə inkişaf etdiyi bu dövrdə bəzən müəyyən mənfi amillərin təsiri ilə onlarda nitqin ritm, sürət və rəvanlığın pozulması - kəkələmə əlamətləri özünü göstərir. Lakin bəzi hallarda məktəbəqədər yaşlı uşaqlarda nitqin tələffüz, ritm və sürət pozulmaları fizioloji çatışmazlıq hesab edilib, norma kimi qəbul edilir.

Məktəbdə təlim-tərbiyə alan kəkələyən uşaqların çoxu normal intellektual inkişafa malik olub, təlim proqramını uğurla mənimsəməyi bacarırlar. Onlarda cisimlər, onların keyfiyyət və fəaliyyətini müəyyən edən kifayət qədər lüğət ehtiyatı, əsas cümlə növlərini tərtib etmək bacarıqları olur. Kəkələyən uşaqları həmyaşıdlarından fərqləndirən əsas cəhət onların ünsiyyət çətinliyi, danışarkən kəkələmələridir. Kəkələyən uşaqların nitq xüsusiyyətlərinin araşdırılması göstərir ki, onlarda lüğət ehtiyatının zənginliyinə, cümlə qurmaq bacarığının olmasına baxmayaraq, kommunikativ proseslərdə ünsiyyət vasitələrindən istifadə etməkdə çətinlik çəkirlər. Ətraf aləmdəki əşya və hadisələrin təsviri, nəqli zamanı tələskənlik, suallara cavab verməkdə çətinliklər uşaqların ünsiyyətini məhdudlaşdırır. Bundan əlavə söz və cümlələrin tələffüzü zamanı ayrı-ayrı səs, heca və sözlərdə onların dilləri “ilişir” və ya onların “düşmə”sinə səbəb olurlar. Bu xüsusiyyət ümumiləşdirmə, nəticə çıxartmaq, öz şəxsi nitqini planlaşdırmaqla bağlı geniş cümlələrdə özünü daha qabarıq göstərir.

Müşahidələr göstərir ki, uşaqlarda kəkələmə nitqin müxtəlif ifadələri zamanı: müşaiyətedici, əksedici nitq, öyrənilmiş nitq materialının (mətn və ya şer parçalarının) hərəkətli ifadəsi, eləcə də ona yaxşı tanış olan sadə mətnlərin oxusu zamanı ya şiddətlənə, ya da zəifləyə bilər. Kəkələmə bəzən eqosentrik, yəni müraciət edilən nitqin müsahibinə deyil, özünə yönəlmiş nitqin müxtəlif növlərində çox da hiss edilmədən özünü

göstərə bilər. Məsələn, uşaqların müstəqil fəaliyyəti zamanı (oyun, dərslərə hazırlıq və s.), mahnı oxuyarkən kəkələmənin əlamətləri müşahidə edilməyə bilər. Bütün bunlardan belə nəticə çıxartmaq olar ki, kəkələmə yalnız nitqli ünsiyyət zamanı meydana çıxır və uşaq nitqində özünəməxsus spesifik xüsusiyyətlərə malik olur. Bu spesifiklik fikrin formalaşdırılması, cavab anında lazımı dəqiq söz və ya ifadələrin axtarılmasında, bəzən isə danışarkən çatışmayan sözün əvəzində jestlərdən istifadə də özünü göstərir.

Kəkələyən uşaqlarda fikrin formalaşdırılması çox ləng gedir və onlar üçün ifadə, yaxud cümlələrin qrammatik cəhətdən düzgün qurulması çətinliklər törədir. Məsələn, kəkələyən uşaqların əksəriyyəti kəkələmədən düzgün cavab verməkdən ötrü öncədən bütün ifadə, yaxud cümləni yaxşı düşünüb fikrən sözbəsöz təkrarlayırlar. Bəzən isə uşaqlar soruşulanı yaxşı anlasalar da, ona tez və düzgün cavabı formalaşdırıb deməkdə çətinlik çəkirlər. Məsələn, müəllim uşaqdan "Vətən nədir?" soruşduqda o, "Mən bilirəm, amma bunu deyə bilmirəm" cavabını verir. Bundan əlavə uşaqlar çox zaman lazımı sözün seçilməsində, verilmiş söz kökündən yeni sözlər yaratmağı, səs, nitq hissəsi və s. üzrə (məsələn, söz oyunu zamanı sözün sonuncu hərfi ilə başlayan sözləri) sözlər düşünüb tapmaqda çətinlik çəkir, nitqlərində sinonim və antonimlərdən çox az istifadə edirlər.

Uşaqlarda tez və dəqiq lazımi sözləri seçmək, öz fikrini düzgün formalaşdıra bilməmək bacarıqsızlığı ilə sıx bağlı spesifik xüsusiyyətlərdən biri olan verbalizm müşahidə olunur. Verbalizm lazımi sözü axtarıb tapana qədər uşağın nitqində bir sıra artıq, fikrə müvafiq olmayan sözlərdən istifadədir. Bu zaman onun nitqi dəqiq və konkret olmayan, mənasız sözyığınına çevrilir. Kəkələyən uşaqlarda verbalizm qısa və birmənalı cavablarda da təzahür edə bilər. Məsələn, müəllimin: "Düşmən üzərində qələbəni kim çaldı? sualına uşaq gözlənilmədən: "Atam" cavabını verdi.

Kəkələyən uşaqlarda verbalizm yazılı nitqdə də özünü göstərə bilir. Məsələn, uşaqlar ana dili fənnində şəkil üzrə inşa yazarkən çoxsayda lazımsız, şəklin ifadə etdiyi fikrə uyğun olmayan sözlərdən istifadə edirlər. Kəkələyən uşaqlara xarakterik olan sözcülük onlarda fikrin məntiqi zəncirinin itirilməsinə gətirib çıxarır. Tez tələsik danışmağa səy göstərmə bütün söylənilənlərin fikrən hazırlığına, lazımi sözləri seçməyə, onu reallaşdırmaq üçün dil vasitələrini müəyyən etməyə mane olur. Məhz belə bir vəziyyətdə kəkələmə təzahür edir və şiddətlənir. Kəkələmənin şiddətlənməsi həmçinin adət etdiyi ünsiyyət şəraitdən fərqli, digər müxtəlif şəraitlərdə baş verməsindən, məsələn, sorğu formasının dəyişilməsi, qəfil sorğu, sinif yoldaşlarının ona qarşı düzgün olmayan münasibəti, dərsdə uzunmüddət cavab vermənin gözləntisi və s. aslıdır. Lakin kəkələyən uşaqların yalnız müəyyən hissəsində fonetik və leksik-qrammatik inkişafın bu və ya digər pozulması müşahidə olunur. Bundan əlavə kəkələyən kiçik yaşlı məktəblilərdə fonetik və leksik-qrammatik inkişafda mövcud çatışmazlıqlar dil vasitələrinin formalaşmamasına təsir göstərir və ünsiyyəti daha da ağırlaşdırır. Kəkələyən uşaqların rabitəli nitqi özünəməxsusluğu ilə fərqlənir. Uşaqlarda yuxarıda qeyd edilən, fikrin formalaşma çətinliyi, çoxsözçülüyü ilə yanaşı, həm də fikir ardıcıllığının, nizamının pozulması da müşahidə edilir.

Kəkələyən uşaqların şəkil, şəkil seriyası, oxunmuş mətn, keçirilmiş gün, bayram və s. haqda müstəqil nəqlində hadisə, hal və dəlillərin ifadə ardıcıllığı və nizamı pozulmuş olur. Belə ki, kəkələyən uşaq bir hadisəni izah edib qurtarmadan digərinə keçir, sonra yenidən əvvəlki hadisəyə qayıdır, onu bitirəndən sonra həmin hadisənin detallarını təkrar edir dəqiqləşdirməyə çalışırlar. Uşaqların bu tərzdə nəql etməsinin təhlili göstərir ki, onlar fikirlərini bir hadisənin təsvir edilməsinə diqqət yönəltməkdə, onun əsas detallarında cəmləməkdə çətinlik çəkirlər.

Kəkələyən uşağın rabitəli nitqində özünü göstərən çatışmazlıqlardan biri də onların əldə etdiyi nəticələrin müstəqil nitqli tərtibatının, hətta ən sadə hadisələrin ümumiləşdirilməsinin çətinliyidir. Kəkələyən uşaqlarda rabitəli nitqin qeyd edilənlərlə yanaşı, uzunsürən fasilələr də özünü göstərir. Uşaqlar nə haqdasa danışarkən birdən-birə dayanır, sonra nitqinə hər hansı bir sözü: "bu, elə, belə, e-e-e, deməli" və s. əlavə edib danışmağa davam edir. Bu cür fasilələr və embolofraziyalar lazımi sözün axtarışı ilə bağlıdır. Bu zaman kəkələyən uşaqlar gərgin halda düşünür, gözlərini bir nöqtəyə dikir, dodaqaltı nə isə pıçıldayır, yaxud lazımi sözü deyib yenidən fasilə edir və embolofraziyalardan istifadə edirlər. Elmi ədəbiyyatlarda embolofraziyaları kəkələməni maskalayıcı bir fənd kimi qeyd edirlər.

Nevrozabənzər kəkələmə zamanı uşaqların psixi inkişafı norma hüdudlarına uyğun olur. Uşaqlarda nitq və hərəkət inkişafı yaş xüsusiyyətlərinə uyğun, bəzi hallarda hətta, daha yüksək ola bilir.

Uşaqlarda kəkələmə, xüsusilə də onun nevrozabənzər növü dislaliya və ya silinmiş dizartriya fonunda baş verə bilir. Tədqiqatçılardan bəzisi kəkələyən kiçik məktəb yaşlı uşaqlarda samit səslərin tələffüzündə bir o qədər də çətinlik çəkmədiklərini, digərləri isə əksinə, məhz samit səslərin tələffüzü zamanı daha çox, başqaları isə onların həm samit, həm də sait səslərdə kəkələdiklərini qeyd edirlər. Kəkələmə adətən, sait səslə başlayan sözlərdə, **a, i** sait səslərin birləşmələrinin tələffüzü zamanı baş verir. Məsələn: alma, ata, ailə, Aişə və s.

Uşaqlarda dayanmalar, müxtəlif çətinliklər dilönü **t** və **s** səslərinin tələffüzündə özünü göstərə bilir. Kəkələyən uşaqlarda səs tələffüzü pozulmalarının olması onlarda qıcolmaların, xüsusilə də artikulyasiya

aparatında: dodaqlar, dil və yumşaq damaqda lokallaşması ilə bağlıdır. Qıcolmalar bir sıra samit səslərin, o cümlədən **b, q, n.p, d, t, k** fonemlərinin tələffüzündə kəskin özünü göstərir.

Bəzən uşaqlarda ümumi nitq funksiyalarının inkişaf ləngliyi, taxilaliya və nitq fəallığının artması müşahidə olunur. Çox zaman kəkələyən uşaqlarda nitqin monotonluğu, ifadəliliyinin olmaması, səslərin karlaşmış tələffüzü müşahidə edilir. Bu hallar uşaqlarda nitq hərəkətlərinin güc və həcminin çatışmamazlığı ilə bağlıdır. Bəzən uşaqlar öz nitqlərini fəal jestlərlə və ya əzilib-büzülmələrlə müşayət edirlər. Bununla yanaşı, nitq hərəkətlərinin məhdudluğunu və onların eynicürlüyünü müşahidə etmək olar. Onlarda nitq motorikasının inkişaf ləngliyi, kiçik motorikanın, ifadəli mimikanın çatışmazlığı və sinkineziyalar özünü göstərir. Uşaqda hərəkətin reaksiya sürətinin və cəldliyin aşağı olması səbəbindən o, səliqəsiz və ağırtərpənişli olur.

Nevrozabənzər kəkələmə zamanı nitq pozulmaları onların intensivliyinin nisbi sabitliyi ilə xarakterizə olunur. Kəkələmənin təzahür gücü psixo-emosional sahəyə təsir edən xarici amillərdən bir o qədər də asılı olmur, həmçinin tanış olmadığı mühit və ya insanlar əhatəsində olması ilə kəkələmənin güclənməsi qeyd edilmir.

Nevrozabənzər kəkələmə yalnız böyük nitq yüklənmələri və psixo-motor qıcıqlanma zamanı güclənə bilər. Bəzən uşaqlarda nitqin pisləşməsi yorğunluq və ya keçirilmiş somatik, yaxud da infeksiyalı xəstəliklərdən sonra müşahidə olunur. Uşaqlarda 9-10 yaşlarında loqofobiya, həyəcan və təlaş kimi nevrotik simptomlar tanış olmadıqları insanların əhatəsində, yaxud da psixoloji cəhətdən komfortlu olmayan mühitdə təzahür edə bilər. Bu zaman uşaqlarda nitqli reaksiyalar aşağı düşür və diqqət çətin səslərin tələffüzünə cəmlənir. Lakin bu sadalanan xüsusiyyətlər daimi olmayıb uşağın psixi və fiziki vəziyyəti ilə bağlı təkanvari özünü göstərir. Məlumdur ki, kəkələmə zamanı nitqin rəvanlığının davamlı avtomatlaşması onun mürəkkəb strukturu və kommunikativliyin nitqsiz təzahürləri (kommunikativ-psixoloji) bir sıra pedaqoji şərtlərin gözlənilməsini tələb edir.

Kəkələyən uşaqlarda nitqin ritm tərəfi həmişə mübahisələr doğuran bir məsələ olmuşdur. Tədqiqatçılar nitqin ritm probleminə müxtəlif tərəflərdən yanaşsalar da, onu həyatın əsas hərəkətverici amili hesab etmişlər. İ.P.Pavlova görə həyatda heç bir şey ritm kimi hökm edə bilməz. Hər hansı bir ritmin mahiyyətini hərəkətlərin sadəliyi, zamanla dinamik proseslər təşkil edir. Lakin ritmin təbiəti hələ də tam aydın olmasa da o, həmin hərəkətlərinin sadəcə elementlərinin təkrarı deyil, lakin ritmdə, onun tənzimləyici mexanizmlərində daha çox sonsuz müxtəlif ardıcıllıq gizlənir. Ritm müxtəlifliyin birliyi kimi dərk edilir. Bu baxımdan nitq ritmi də çox mürəkkəb bir prossesdir. Tədqiqatçılar nitqdə ritm elementləri ilə yanaşı, ritmsizliyin müxtəlif variantlarının olduğunu da qeyd edirlər. Q.N.İvanova-Lukyanova nəzmdə ritm haqqında danışarkən, onun nitqin əsas tikinti vasitəsi olduğunu qeyd etmişdir (s.128)

Şübhəsiz ki, gündəlik nitqdən ritm elementlərinin şeir və mahnılara keçməsi danışıq nitqi ilə şeir və mahnıların oxunması, intonasiya və ritm, şifahi mülahizələrlə emosional məzmunu arasında sıx bağlılıq yaradır. Ritm heca qruplarının ritmik qurulmasını təşkilatlandıran söz və ifadələrin əsasını təşkil edir. Kəkələyən uşaqların nitqinin təhlili göstərir ki, onlarda məhz artikulyasiyanın, tənəfüs, səs və ritmin pozulması qıcolmaların yaranmasına, nəticədə onların nitq motorikasına təsiri kəkələmənin şiddətlənməsinə gətirib çıxarır.

Kəkələyən uşaqlarda nevroz üçün xarakterik olan müxtəlif emosional çatışmazlıqlar müşahidə olunur. Onlarda müəyyən emosional reaksiyalar və şəxsiyyətin dəyişmələri kəkələməni şərtləndirən patoloji amillərin yaranmasında, onun səviyyə və ağırlaşmalarında böyük rol oynayır.

Məktəb təlimi dövründə nitqin kommunikativ funksiyasının təkmilləşməsində uşaqların yazılı nitqə yiyələnməsi əhəmiyyətli rol oynayır. Məhz yazılı nitq üçün xarakterik olan ardıcıllıq və quruluşun mürəkkəbliyinə yiyələnmə nitqin bütün funksiyalarının: informasiya mübadiləsi, tənzimləyici, özünütənzimləmənin inkişafına kömək edir.

Qeyd etmək lazımdır ki, kəkləyən kiçik yaşlı məktəblilərin oxu prosesi də spesifik xüsusiyyətlərə malik olur. Adətən, bu uşaqlarda çox sürətli oxu və oxu zamanı söz sonluqlarının, bəzən hətta bütöv sözlərin buraxılması müşahidə olunur. Uşaqlarda oxunun tapmaca üzrə olması ifadələrin, hətta oxunan mətnin təhrifinə, gətirib çıxarır. Mətnin oxunuşu çoxsaylı dili dolaşmalar və fasilələrlə olduğundan ifadəlilikdən məhrum olur.

Kəkələyən məktəblilərin yazı işlərində müxtəlif səhvlərin olması xarakterikdir. Onlarda orfoqrafiya qaydalarını kifayət qədər mənimsənilməməsi ilə bağlı hərflərin yazılış və məkanda yerləşmə pozulmaları, sözlərdə heca və cümlələrdə sözlərin buraxılmaları, cümlədə söz sırasının pozulması və s. bu kimi səhvlər müşahidə olunur. Kəkələyən uşaqların yazısında qaralamalar, düzəlişlərə çox rast gəlinir. Kəkələyən uşaq impulsiv davranıb çox zaman buraxdığı səhvləri özləri elə yazarkən düzəltməyə çalışırlar.

Beləliklə də, kəkələmə nitq aparatı əzələlərində qıcolmaların yaratdığı nitqin tempritmik tərtibatının pozulması kimi çox rast gəlinən nitq pozulmalarından biridir və kəkələməni dərhal, o meydana çıxdığı zaman aradan qaldırmaq lazımdır. Əks təqdirdə o zaman keçdikcə daha da ağırlaşıb möhkəmlənə və uşağın psixi inkişafına çox böyük zərər verə bilər.

Kəkələmə təkcə nitqə, deyil, həm də uşaqların hərəkət və şəxsiyyət sahələrinə, həmçinin məktəb təliminə də mənfi təsir göstərir və uşağı normal ünsiyyət şəraitindən məhrum edir. Buna görə də bu pozulmanı uşaq məktəbə getməzdən öncə aradan qaldırmağın vacibliyi qeyd edilir.

## Ədəbiyyat

1. T.H.Ağayeva, N.Thüseynova. Loqopediya Bakı, 2018
2. L.H.İmanova Kəkələyən məktəbəqədər yaşlı uşaqlarla korreksiyaedici işin təşkili // Korreksiona pedaqogikanın müasir məsələləriAzərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı 2012 səh. 222-280
3. Ворошилова Е.Л. Коррекция заикания у дошкольников. – Изд.: Сфера, 2012 г.
4. Иванова Лукянова Г.Н. Развитие фонетики русского языка М.1971
5. Селиверстов В.И. Заикание у детей: Психокоррекционные и дидактические основы логопедического воздействия. - М.: ВЛАДОС, 2000.
6. Флерова М.М. Логопедия. Серия "Мир вашего ребёнка". 2-е изд., - Ростов н/Д. - Феникс, 2004.

**Rəyçi: dos. E.Mollayeva**

Göndərilib: 12.01.2021 Qəbul edilib: 14.01.2021